# Ermənilərin Sumqayıt təxribatı həqiqət aynasında

***1988-ci ilin fevralında ermənilər öz əlləri ilə Sumqayıtda törətdikləri iğtişaşları hələ də gündəmdə saxlamağa çalışırlar. Onlar haray-həşir salıb, həmsoylarının milli mənsubiyyətə görə öldürüldüyünü haqsız olaraq iddia edirlər. O zaman "məzlum" xalqın xüsusi xidmət orqanları, Moskva rəsmiləri və ermənilərə işləyən sovet KİV-i vasitəsilə hadisələrin əsl mahiyyətini ustalıqla təhrif edə, yanlış məlumatları yaya və bununla da dünya ictimaiyyətini çaşdıra bilmişdilər. Lakin çox keçmədən təkzibolunmaz faktlarla sübut edildi ki, Sumqayıt olayları Qorbaçov, Aqanbekyan, Yazov və digərlərinin timsalında sovet imperiyası rəhbərliyinin Qarabağı Azərbaycandan qoparıb Ermənistanın tərkibinə qatmaq üçün düşünülmüş məkrli planlarının tərkib hissəsi olmuşdur.***

Sumqayıt hadisələri ilə əlaqədar keçmiş SSRİ Prokurorluğunun İttifaqın müxtəlif respublikalarından və hüquq-mühafizə orqanlarından ezam olunan 200-ə yaxın müstəntiq və bir o qədər də əməliyyatçıdan ibarət istintaq-əməliyyat qrupu böyük həcmdə material toplamış, araşdırmış və bir çox şəxslər məsuliyyətə cəlb edilmişdilər. Lakin istintaqın lap əvvəlindən zərərçəkənlərin yalnız ermənilər, təqsirkarların isə azərbaycanlılar olması barədə irəli sürülmüş doqmatik fərziyyə istintaqın birtərəfli və kifayət qədər qərəzli aparılmasına, onun müəyyən siyasi sifarişi yerinə yetirməsinə səbəb olub.

Sumqayıt hadisələrinin canlı şahidlərindən aldığımız müsahibələrdə bu məsələyə bir daha aydınlıq gətirilir.

***Şakir Həsənov, "Aztermoizol" ASC-nin sədri:***

–Dövlətimizin başçısı cənab İlham Əliyev 2019-cu il noyabrın 21-də Sumqayıt şəhərinin 70 illiyinə həsr olunmuş tədbirdəki nitqində sözügedən hadisələrin mahiyyətinə, ermənilərin qanlı aksiyalarının, əslində, nəyə xidmət etdiyinə aydınlıq gətirmiş və bəyan etmişdir ki, sovet dönəmində – ötən əsrin 88-ci ilində, fevralın son günlərində törədilmiş Sumqayıt hadisələri məhz Dağlıq Qarabağın Azərbaycandan qoparılmasına və keçmiş SSRİ-nin dağıdılmasına təkan verəcək vasitələrdən biri kimi düşünülmüşdü.

Bir sumqayıtlı kimi, həmin hadisələri bütün məqamları ilə xatırlayıram. Öncə onu deyim ki, əgər olayları ermənilərin iddia etdikləri kimi, azərbaycanlılar təşkil etmişdilərsə, onda necə olub ki, "məzlum" xalqın nümayəndələri ilə bərabər, 6 nəfər soydaşımız da öldürülüb? Burada məntiq yoxdur. Fakt budur ki, iğtişaşlar məhz "Nalyotçik"lər – SSRİ-nin və Ermənistanın xüsusi xidmət orqanları, özü də "uğur"la həyata keçiriblər. Dərhal da böhtan xarakterli təbliğat mexanizmi işə salınıb. Erməni millətçiləri dünya ictimaiyyətinə azərbaycanlıları başkəsən, bandit və quldur kimi qələmə verməyə çalışıblar. Lakin ermənilərin iftira dolu böhtanları, gec də olsa, ifşa edilib. Sumqayıtda baş verən hadisələrdə əsl günahkarların kim olduğu sübuta yetirilib.

İstintaqın ilkin mərhələsində Sumqayıtda Z.Ağababyan, E.Misesov, N.Qriqoryan, K.Tamrazyan, D.Ağacanyan, D.Ambartsumyan həbs edilmişdilər. Bu haqda SSRİ Daxili İşlər naziri Vlasova teleqram vurulmuşdu. Nazir Rusiyanın ayrı-ayrı bölgələrindən erməni millətindən olan bir neçə təhqiqatçını təcili olaraq Sumqayıta ezam etmiş və istintaq materialları azərbaycanlı müstəntiqlərin əlindən alınaraq, onlara verilmişdir. Bir neçə gündən sonra isə SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin əməkdaşlarının göstərişi ilə istintaq işinə xitam verilmişdir. Cinayətkarlar azad olunmuş və Sumqayıtı tərk etmişlər.

Biz haqlı olaraq, Serj Sarkisyanı Xocalı soyqırımında ittiham edirik. Artıq bir çox xarici ölkələrin nüfuzlu təşkilatları və beynəlxalq qurumları onun Xocalıda cinayət törətdiyinə, əlinin qana bulaşdığına inanırlar. Sarkisyanın əli Sumqayıtda yaşayan ermənilərin qanına bulaşmasa da, onun həmin hadisələrin də əsas təşkilatçılarından biri olduğu məlumdur. Hüquq-mühafizə orqanlarının arxiv materiallarından bəlli olur ki, Sumqayıt sakini olan cinayətkar Eduard Qriqoryan 1988-ci ilin əvvəllərində Stepanakertdə, sonradan Ermənistanın prezidenti olmuş Sarkisyanla, "Krunk" cəmiyyətinin fəalları Manucarov və Dədəmyanla görüşmüşdür. Görəsən, qatı millətçi və heç bir kompromisə getməyən Serj Sarkisyanın tüfeyli həyat sürən keçmiş məhbus Ediklə Stepanakertdə nə işi ola bilərdi? Cavab aydındır: Qarabağ məsələsi düyünə düşmüşdü və bu düyünü açmaq üçün Sumqayıt variantından istifadə etmək lazım idi.



***Eyruz Məmmədov, Əməkdar jurnalist:***

–Sumqayıtda baş verən hadisələrin tədqiqatı ilə 34 ildir ki, məşğul oluram. Bu mövzuda bir sıra kitablarım çap edilərək türk, rus, alman, ingilis, ispan dillərinə tərcümə olunub. Həmçinin "Sumqayıtın əks-sədası" tammetrajlı, "Sumqayıtın əks-sədası-2" 5 seriyalı və "Sumqayıt" adlı sənədli filmlərin ssenari müəllifiyəm. Yazdıqlarımın əsasını o zaman məhz gördüklərim və sonrakı dövrlərdə araşdırdığım faktlar təşkil edir.

Sübut edilib ki, 1988-ci ildə Sumqayıtda təxribat əsas təşkilatçıları SSRİ Dövlət Təhlükəsizlik Komitəsi, erməni kəşfiyyat orqanları və "Daşnaksütyun" partiyasının ekstremist dəstələri olublar. Maraqlı burasıdır ki, Sumqayıtda baş verən hadisələrdən bir neçə gün əvvəl Moskvadan buraya 36 nəfər DTK əməkdaşı göndərilmişdi. Yerli agenturanın verdiyi məlumata görə, Sumqayıtda iğtişaşlar törətmək üçün şəhərə erməni ekstremist qrupları daxil olurdu. Bu haqda Moskvadan gələn nümayəndələrə məlumat verildikdə, onlar yerli orqan işçilərinə hadisələrə müdaxilə etməyi qadağan etmişdilər. Təşkilatçılar Sumqayıtda planlaşdırılan təxribatları şərti "Nalyotçik" ("basqınçı") kodu altında həyata keçiriblər.

İstintaqa təqdim olunmuş arxiv materialları arasında bu barədə müvafiq sənədlərə rast gəlmək mümkündür. Əməliyyat işinin 146–147-ci səhifələrindəki siyahıdan aydın olur ki, Sumqayıtda iğtişaşları törədənlərə və onlara qoşulan yetkinləşməmiş gənclərə 40 nəfərlik erməni ekstremist qrupu rəhbərlik edib. Məhz onlar kütləvi iğtişaşları eynilə nəzərdə tutulduğu kimi həyata keçiriblər. Müdhiş "ssenari"nin müəllifləri izi azdırmaq üçün 5 nəfər ermənini qətlə yetirmiş və bir neçə erməni qızını zorlamış Eduard Qriqoryanı baş təşkilatçı kimi qələmə veriblər. Əslində isə "Paşa" ləqəbli bu cani olayların icraçısı rolunu oynayıb. Təsadüfi deyil ki, o, həbs edildikdən bir müddət sonra azadlığa buraxılıb və hazırda Moskva ətrafındakı bir evdə kef içində yaşamaqdadır. Bütün bunlar bir daha sübut edir ki, Sumqayıt hadisələri qabaqcadan düşünülmüş və planlaşdırılmış bir aksiya idi.

Belə faktlar çoxdur. Erməni təşkilatları "baş rol"un ifaçısı, cinayətkar E.Qriqoryanı ağır cəzadan da qurtara biliblər. Moskva Məhkəməsi hadisə iştirakçısı Əhməd Əhmədov haqqında ölüm hökmü çıxarıb və hökm yerinə yetirilib. Ancaq qətllərin əsas icraçısı E.Qriqoryana vur-tut 12 il iş verilib və bir müddət sonra o, Ermənistana "etap" olunaraq azadlığa buraxılıb...

Digər şahidlər də Sumqayıt hadisələrinin ermənilərin təhriki ilə həyata keçirilən məkrli oyun olduğunu təsdiqləyirlər. Şahid Allahverdi Qasımovun sözlərinə görə, Azərbaycan dilində səlis danışa bilən Edik avtovağzalda bir neçə gənci toplayaraq onlara Qafandan yenicə gəldiyini və orada azərbaycanlı qadınların elektrik dirəklərinə mıxla vurulduğunu deyərək, ermənilərə nifrət hissi aşılayıb. Qətllərin törədildiyi bütün ünvanlara da dəstənin başında özü yollanıb. Amma dövlət ittihamçısı onun üçün ömürlük cəza istəsə də, bu, qəbul edilməyib. Kütləvi iğtişaşlarda iştirak, zorlama, qətl, qarət, milli ədavətin qızışdırılması ittihamları ilə mühakimə olunan E.Qriqoryan cəmi 12 il iş alıb. Çünki SSRİ Prokurorluğuna əsl həqiqəti ört-basdır etmək tapşırığı verilmişdi. Beləcə, Sumqayıtda keçirilmiş məhkəmə proseslərində azərbaycanlılara qarşı açıq-saçıq qərəz nümayiş etdirilib.

Hadisələrin iştirakçısı olmuş Nəcəfov soyadlı gənc isə istintaqda demişdi: "Qriqoryan tərəfindən təşkil olunmuş dəstə Emma adlı erməni dərzi qadının 512 saylı evinə soxuldu, dərhal qadını lüt soyundurdular və Edik onu bu vəziyyətdə, şaxtanın qılınc kimi kəsdiyi küçəyə çıxartmağı təklif etdi. Sonra onun rəhbərliyi ilə Emma vəhşicəsinə öldürüldü. Ardınca Qriqoryan öz dəstəsi ilə 1-ci mikrorayonda M.Petrosyanın mənzilinə daxil oldu, müqavimət göstərmək istəyən mənzil sahibinə başından zərbə endirərək halsız vəziyyətə saldı".

Şahidlər bildiriblər ki, əvvəllər üç dəfə məhkum olunmuş amansız Eduard Qriqoryan öz ətrafına topladığı "dost"ları ilə asanlıqla ümumi dil taparaq, quldurluq və soyğunçuluq etmək üçün yaxşı fürsət yarandığını deyib və onları mitinqlərin keçirildiyi meydana aparıb. Orada yenə də özünü Qafandan qaçıb gəlmiş azərbaycanlı kimi təqdim edərək, ermənilərin orada dinc azərbaycanlı əhalini qırdıqlarını, özlərinin isə bir maşın meyit gətirdiklərini söyləyib. "Qana – qan!" kimi təxribatçı şüarlarla hamını intiqama səsləyib. Hədəf isə "Qarabağ" komitəsinə və "Krunk" cəmiyyətinə ianə verməkdən imtina etmiş ermənilərin yaşadıqları mənzillər olub.

Sumqayıt hadisələrindən 34 il keçir. Ermənilər hələ də özlərinin törətdikləri həmin təxribatdan bəhrələnmək istəyirlər. Amma hədər yerə, çünki kimin kim olduğu bu gün artıq bütün dünyaya məlumdur. Azərbaycanın informasiya blokadasına salındığı və haqqımızda hər cür böhtanın, hərzə-hədyanın yayıldığı dönəmlər çoxdan arxada qalıb. Ermənilərin həqiqətləri təhrif etmək imkanları sıfır həddindədir.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***